# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN 2021-Cİ İL ƏRZİNDƏ XİDMƏTİ FƏALİYYƏTİNİN ÜMUMİ NƏTİCƏLƏRİNƏ DAİR

## HESABATI

## I. ÜMUMİ HİSSƏ

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu və sosial-iqtisadi inkişaf konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə ötən illərdə olduğu kimi 2021-ci ildə də biznes və investisiya mühiti daha da yaxşılaşdırılmış, iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft sektorunun təşviqi, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində genişmiqyaslı islahatların həyata keçirilməsi nəticə etibarı ilə ümumilikdə ölkəmizin mövqelərinin daha da güclənməsinə əlverişli zəmin yaratmışdır. 2019-cu ilin son aylarından başlayaraq dünyada baş verən Koronavirus (COVİD-19) pandemiyasının insanların sağlamlığına təsirinin minimuma endirilməsi Milli iqtisadiyyatın inkişaf tendensiyasının qorunub saxlanılması, yeni çağırışlara adekvat olaraq müvafiq tədbirlərin görülməsini zəruri etmişdir. Bu baxımdan ölkə iqtisadiyyatının genişşaxəli formatda inkişafının təmin edilməsi məqsədilə aidiyyəti üzrə ayrı-ayrı mərkəzi icra orqanlarına müvafiq işlərin görülməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi bu proseslərə öz töhfəsini vermək, fiskal sahədə qarşıya qoyulmuş vəzifə və tapşırıqların yüksək səviyyədə yerinə yetirmək məqsədilə 2021-ci il ərzində “Dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının qanununa əsasən müəyyən edilmiş proqnoz öhdəliyini uğurla yerinə yetirmiş, gömrük nəzarəti və gömrük qaydalarının pozulmasına qarşı mübarizə tədbirlərini gücləndirmiş, xarici-iqtisadi fəaliyyət iştirakçılarına göstərilən gömrük xidmətinin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir.

Hesabat dövründə gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi və sahibkarlar üçün biznes mühitinin əlverişliliyinin artırılması məqsədilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya tərəfindən hazırlanaraq təsdiqlənmiş “Sərhəddə ticarət” işçi qrupunun 2021-ci il üçün Fəaliyyət Planı” çərçivəsində sahibkarların, konsaltinq və hüquq şirkətlərinin iştirakı ilə mütəmadi görüşlər təşkil edilmiş, sahibkarları narahat edən məsələlər müzakirə edilmiş və həlli istiqamətində qanunauyğun tədbirlər görülmüşdür.

Bu çərçivədə görülən işlərin nəticəsi olaraq, Dünya Bankının son audit açıqlamalarına əsasən ölkəmiz “Doing Business” hesabatında 6 pillə irəliləyərək 34-cü pillədən 28-ci pilləyə yüksəlmişdir. Xüsusilə, “Sərhəddə ticarət” indikatoru müsbət istiqamətdə dəyişikliyə məruz qalan əsas indikatorlardan biri olmuşdur.

“Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli 1853 saylı Sərəncamına əsasən normativ hüquqi bazanın təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin daha da sadələşdirilməsi, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi, infrastrukturun inkişafı, kadr potensialının gücləndirilməsi, çevik idarəetmə sisteminin tətbiqi, vətəndaş məmnunluğunun təmin olunması, şəffaflığın artırılması hesabat dövründə diqqət mərkəzində saxlanılmışdır.

## II. GÖMRÜK ÖDƏNİŞLƏRİNİN TOPLANILMASI ÜZRƏ GÖRÜLƏN İŞLƏR

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi xidməti fəaliyyətində hüquq mühafizə tədbirlərini həyata keçirməklə yanaşı, fiskal funksiyanın yerinə yetirilməsində mühüm rola və büdcə gəlirlərinin formalaşmasında xüsusi çəkiyə malikdir.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Qanununa əsasən Dövlət Gömrük Komitəsi üçün 3 milyard 900 milyon manat büdcə öhdəliyi müəyyən edilmişdir. Ötən illərdə olduğu kimi, 2021-ci ildə də Dövlət Gömrük Komitəsi büdcə daxilolmalarındakı artım tendensiyasını qoruyub saxlamışdır.

Belə ki, 2021-ci il üzrə Dövlət Gömrük Komitəsi üçün qanunla nəzərdə tutulan 3 milyard 900 milyon manat büdcə öhdəliyinə qarşı faktiki olaraq 4 milyard 342 milyon 967 min manat olmaqla, proqnoz göstəriciləri ilə müqayisədə 442 milyon 967 min manat artıq gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülmüş və illik büdcə öhdəliyinə 111,36 faiz əməl olunmuşdur.

2021-ci ildə idxal əməliyyatlarının həcmi 11 milyard 706 milyon ABŞ dolları təşkil etmiş, ötən illə müqayisədə 974 milyon ABŞ dolları və ya 9,08 faiz idxalın həcmi artmışdır. Qeyd etmək lazımdır ki, 2021-ci ildə idxal əməliyyatlarının həcminin 974 milyon ABŞ dolları həcmində artımı bütövlükdə vergitutma bazası olmamışdır. Qanunvericilikdə nəzərdə tutulan imtiyazlar üzrə vergi və rüsumdan azadolmalar 50 faizdən çox təşkil etmişdir. 2021-ci ildə İxrac əməliyyatlarının həcmi isə 22 milyard 206 milyon ABŞ dolları təşkil etmişdir ki, bu isə 2020-ci illə müqayisədə 8 milyard 474 milyon ABŞ dolları və ya 61,71 faiz çoxdur.

Qeyri-neft məhsullarının ixracı 2 milyard 713 milyon ABŞ dolları olmaqla, 2020-ci illə müqayisədə 870 milyon ABŞ dolları artmışdır.

Ümumilikdə idxalda əlavə dəyər vergisi üzrə vergitutma bazası 79,38 faiz, azadolmaların xüsusi çəkisi 20,62 faiz, gömrük rüsumları üzrə vergitutma bazası 44,96 faiz, gömrük rüsumu üzrə verilən güzəştlərin xüsusi çəkisi 55,04 faiz təşkil etmişdir.

Bununla yanaşı, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 30.1.1. maddəsinə əsasən 2021-ci ildə Dövlət Gömrük Komitəsinin struktur bölmələri tərəfindən sərhəddə "İcazə" blanklarının verilməsinə görə 17 milyon 528 min manat, nəqliyyat vasitələrinə verilən texniki eyniləşdirmə şəhadətnaməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 30.1.1. maddəsinə əsasən 1 milyon 505 min manat məbləğində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülmüşdür.

Hesabat dövründə gömrük orqanları tərəfindən tətbiq olunan gömrük dəyərləndirilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) tərkibində yaradılmış vahid qiymət-məlumat bazasında idxal əməliyyatları üzrə qeydə alınmış malların Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası (XİFMN) koduna və ölçü vahidinə görə yerləşdirilmiş statistik dəyərləri haqqında məlumatlar üzrə mütəmadi təhlillər aparılmışdır. Qeyd olunan qiymət-məlumat bazasının yaradılması nəticəsində gömrük əməkdaşları rəsmiləşdirmə prosesində düzgün bəyan olunmayan və ya gömrük dəyəri aşağı bəyan olunması ehtimal edilən mallar üzrə əməliyyatları daha səmərəli və qanunauyğun qaydada müəyyən edə bilmişlər. Hesabat dövründə qiymət-məlumat bazasına daimi nəzarət təmin olunmaqla, idxal olunan malların gömrük dəyərinin aşağı salınması nəticəsində gömrük ödənişlərinin düzgün hesablanmayaraq dövlət büdcəsinə az məbləğdə köçürülməsi hallarının qarşısının alınması

istiqamətində daimi olaraq müvafiq tədbirlər görülmüşdür. Və nəticədə dövlət büdcəsinə 15 milyon 146 min 261 manat gömrük ödənişlərinin ödənilməsi təmin edilmişdir.

Dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktı tərtib edilərək təsdiqlənmiş, həmçinin Dövlət Gömrük Komitəsi üzrə büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Hesablama Palatasına mütəmadi olaraq məlumatlar təqdim edilmişdir. Həmçinin gömrük orqanları tərəfindən toplanan və dövlət büdcəsinə köçürülən gömrük vergi və rüsumları barədə məlumatlar Komitənin rəsmi internet saytında mütəmadi olaraq yerləşdirilmişdir.

Hesabat ilində növbəti üç il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin layihəsinin hazırlanması məqsədilə geniş iqtisadi təhlillər aparılmış və müvafiq təkliflər Azərbaycan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliklərinə təqdim edilmiş və nəticə etibarilə Dövlət Gömrük Komitəsi üçün 2022-ci il üzrə 4 milyard 260 milyon manat həcmində büdcə proqnozu müəyyən edilmişdir.

Fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrindən valyuta sərvətlərinin keçirilməsinə nəzarət edilmiş, fiziki şəxslər tərəfindən milli və xarici valyutanın Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə bağlı aylıq statistik məlumatlar Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün bankların müraciətlərinə mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq aidiyyəti üzrə baxılmış və hal-hazırda 15 bank müvafiq qaydada reyestrə daxil edilmişdir.

Hasilatın pay bölgüsü sazişlərinə əsasən idxal, ixrac rüsumları və vergiləri haqqında protokola əsasən neft-qaz əməliyyatları üzrə təsərrüfat subyektlərinə qanunla nəzərdə tutulmuş qaydada gömrük ödənişlərindən azadolma hüququ verən 154 sertifikat verilmişdir.

“Beynəlxalq avtomobil daşımalarını həyata keçirən xarici dövlətlərin nəqliyyat vasitələrinə tətbiq edilən icazə blanklarının elektron tətbiqinə və uçotuna dair Texnoloji Sxem” hazırlanmış, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə ilə razılaşdırılmış və 01 yanvar 2021-ci tarixdən icazə blanklarının elektron formada tətbiqinə başlanılmışdır.

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq bəndlərində nəzərdə tutulmuş əməliyyatlar barədə məlumatlar mütəmadi olaraq Maliyyə Monitorinqi Xidmətinə ötürülmüş və şübhəli bilinən hallar olduqda bu barədə Komitənin aidiyyəti qurumları məlumatlandırılmışdır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən daxil olan məktublar əsasında sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı ilə bağlı məlumatların Azərbaycan Respublikası

Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin reyestrinə yerləşdirilməsi təmin edilmişdir.

## III. GÖMRÜK İŞİ SAHƏSİNDƏ HÜQUQPOZMALARA QARŞI MÜBARİZƏ İLƏ ƏLAQƏDAR GÖRÜLƏN İŞLƏR

2021-ci il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 17144 hüquqpozma faktı aşkar edilmişdir. Və bu faktlardan 418-i cinayət xarakterli faktlar olmuş və həmin faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 6 milyon 504 min manatdan çox təşkil etmişdir. Bu əməllərin törədilməsində şübhəli bilinən 427 nəfər (333 Azərbaycan vətəndaşı, 94 əcnəbi) barəsində müvafiq tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli 1334 saylı Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək və gömrük sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində 2021-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 55 fakt aşkar olunmuşdur.

Bu faktlar üzrə hesabat ilində ümumilikdə 3 ton 43 kq 507 qramdan çox narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən götürülmüşdür. 2020-ci illə müqayisədə 2021-ci ildə qanunsuz dövriyyədən götürülmüş narkotiklərin miqdarı 2 dəfədən çox artmışdır. 2021-ci ildə qanunsuz dövriyyədən götürülmüş narkotiklərin içərisində daha ağır və təhlükəli narkotiklər olan heroin və metamfetaminin xüsusi çəkisi kəskin artmışdır.

Belə ki, 622 kq 75 qramı maye halında olmaqla 2 ton 106 kq 135 qram heroin (2020-ci illə müqayisədə 47 faiz çox), 194 kq 122 qram metamfetamin (2020-ci illə müqayisədə 30 dəfə çox) tutulmuşdur ki, bu da ümumi götürülmüş narkotiklərin 75 faizdən çoxunu təşkil edir.

Bununla yanaşı, 2021-ci ildə 698 kq 247 qram tiryək, 44 kq 672 qram həşiş, 89,9 qram kokain, 57 qram marixuana, 17,64 qram metadon, 145 qram MDMA (ekstazi), 20 qram fenobarbital və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2021-ci il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 56 nəfər: 55 kişi və 1 qadın olmaqla 22 nəfər Azərbaycan vətəndaşı, 34 nəfər əcnəbi barəsində müvafiq tədbirlər görülmüş, 3 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilmişdir.

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları 19 halda Azərbaycan Respublikasına gətirilərkən, 1 halda Kanadaya aparılarkən, 31 halda tranzit yolla keçirilərkən, 4 halda isə ölkə daxilində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanmışdır.

2021-ci il ərzində istintaq orqanının barələrində axtarış elan etdiyi 11 nəfər şəxslə bağlı zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilərək onların yeri müəyyən edilmiş və istintaq orqanına gətirilməsi təmin edilmişdir.

Hesabat dövründə Komitənin Əməliyyat-İstintaq Baş İdarəsinin icraatında olmuş 221 cinayət işindən 95 cinayət işi ittiham aktları ilə birlikdə ibtidai araşdırmaya rəhbərlik edən prokurora göndərilmiş, həmin işlərdən 90-ı üzrə ittiham aktı təsdiq edilərək cinayət işləri baxılması üçün aidiyyəti məhkəmələrə verilmiş, 5 cinayət işi əlavə istintaq aparılması üçün istintaq orqanına qaytarılmış, 64 cinayət işinin icraatı dayandırılmış, 8 cinayət işinin icraatına xitam verilmiş, 6 cinayət işinin istintaqı aidiyyəti üzrə digər orqanlara göndərilmiş, 9 cinayət işi icraatda olan digər cinayət işlərinə birləşdirilmiş, 39 cinayət işi hesabat dövrünün sonuna icraatda qalmışdır. İstintaqı tamamlanmış cinayət işləri üzrə 110 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, təqsirləndirilən şəxslərdən 54 nəfəri barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri, 5 nəfəri barəsində məhkəmə tərəfindən ev dustaqlığı qətimkan tədbiri, qalan 51 nəfəri barəsində isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilmişdir.

Hesabat dövründə icraatda olan cinayət işləri üzrə 69 şəxs Azərbaycan Respublikası Cinayət prosessual Məcəlləsinin 148-ci maddəsinə əsasən tutulmuş, onlardan 56-sı barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri, 5-i barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş, 5 şəxs gələcəkdə həbsdə saxlamaq üçün zərurət olmadığına görə, 2 şəxs isə şübhə təsdiq edilmədiyinə görə istintaq orqanı tərəfindən azad edilmişdir.

2021-ci il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 16 726 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 1749 hüquqi şəxs (o cümlədən 481 xarici hüquqi şəxs) və 14 989 fiziki şəxs (o cümlədən 10 453 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 3 milyon 523 min 402 manat cərimə tətbiq olunmaqla, dəyəri 1 milyon 300 min 605 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilmişdir.

Gömrük qaydaları əleyhinə inzibati xətalar əsasən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən gömrük nəzarətindən gizlədilməklə keçirilməsi, bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, malların, nəqliyyat vasitələrinin və ya onlara aid sənədlərin müəyyən edilmiş müddətdə təyinat gömrük orqanına çatdırılmaması, onların gömrük ərazisindən müəyyən edilmiş müddətdə kənara aparılmaması, yaxud həmin əraziyə qaytarılmaması, qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsi, gömrük ödənişlərinin (borcunun) ödənilməsindən yayınma ilə əlaqədar olmuşdur.

“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarət həyata keçirilərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 137 910 ABŞ dolları, 3 348 000 rus rublu, 41 550 avro, 6820 gürcü larisi, 50300 saxta ABŞ dolları, 2 milyon 713 min 831 manat dəyərində 7328 ədəd qızıl zinət əşyaları, sikkələr və külçələr, 23 378 manat dəyərində 428 ədəd gümüşdən hazırlanmış məişət və zinət əşyaları, 1 335 135 manat dəyərində 11 692 karat qiymətli daşlar və s. aşkar olunmuşdur.

Hesabat dövründə gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilmiş qətiyyətli tədbirlər nəticəsində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 310 679,7 manat dəyərində 1 780 380 ədəd xaricdə istehsal olunan siqaretlər, 147 057 manat dəyərində 3389,12 litr spirtli içkilər, həmçinin aksiz markalarının tətbiqi

qaydalarının pozulması halları ilə əlaqədar Azərbaycan Respublikasının aksiz markası ilə markalanmış 1 719 761 manat dəyərində 93 021,5 litr spitrli içki saxlanılmışdır.

Bununla yanaşı 237,4 litr təşkil edən 210 ədəd saxta aksiz markası ilə markalanmış müxtəlif markalı spirtli içkilərin qanunsuz dövriyyəsinin qarşısı gömrük orqanları tərəfindən qətiyyətlə alınmışdır.

Müasir dövrdə gömrük hüquqpozmalarının hazırlanması və törədilməsi iki və daha artıq dövlətin ərazisində baş verməsi səbəbindən həmin hüquqpozmalarla səmərəli mübarizənin beynəlxalq əməkdaşlıq olmadan həyata keçirilməsi qeyri-mümkündür. Bu çərçivədə hesabat ilində hüquq-mühafizə fəaliyyəti üzrə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi üçün əməliyyat, təhqiqat və istintaq, eləcə də gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin digər istiqamətlərini əhatə edən xarici ölkələrin və beynəlxalq təşkilatların sorğuları icra olunmuş və bu sahə üzrə qarşı tərəfə analoji və digər sorğular göndərilərək müvafiq cavablar alınmışdır. Həmçinin, bu sahədə təşkil edilmiş müxtəlif konfranslar, görüşlər və seminarlarda əməkdaşların iştirakı təmin edilmiş, müvafiq məlumat və təcrübə mübadiləsi aparılmışdır.

## IV. QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən aşağıda qeyd olunan bir sıra qərar, qanun, sərəncam layihələri hazırlanmış və müvafiq qaydada baxılması üçün aidiyyəti üzrə təqdim edilmişdir.

- Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 427 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası”nda dəyişiklik edilməsi haqqında Fərman layihəsi Komitənin 1000-210/001-21/007763 nömrəli 16.05.2021-ci il tarixli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və 18.12.2021-ci il tarixli 1488 nömrəli Fərmanla qəbul olunmuşdur;
- “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Fərman layihəsi 1000-210/001-21/008458 nömrəli 26.05.2021-ci il tarixli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və hal-hazırda baxılmaqdadır;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsinin aidiyyəti dövlət qurumlarının rəy və təklifləri nəzərə alınmaqla yenidən işlənib hazırlanmış yekun variantı 1000-140/006-21/016379 nömrəli 25.10.2021-ci il tarixli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 noyabr tarixli 343 nömrəli Qərarı ilə qüvvəyə minmişdir;
- Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti ilə birgə hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetində aidiyyəti dövlət orqanlarının rəy və təklifləri əsasında təkmilləşdirilərək yenidən işlənilmiş “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı” və “Azərbaycan

Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları" layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı il təsdiq edilmişdir;

- "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun layihəsi Komitənin 1000-210/001-21/008665 nömrəli 31.05.2021-ci il tarixli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və 27 dekabr 2021-ci il tarixində qəbul olunmuşdur;

- Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi Komitənin 1000-210/001-21/011224 nömrəli 12.07.2021-ci il tarixli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və 29 oktyabr 2021-ci il tarixli 1472 nömrəli Fərmanla təsdiq olunmuşdur;

- "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 20 noyabr tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ərzaq payı ilə təmin olunan gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısı"nda dəyişiklik edilməsi barədə" qərar layihəsi Komitənin müvafiq məktubları ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikası Maliyyə Nazirliyinə göndərilmiş və hazırda nazirliklərdə baxılmaqdadır;

"Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında" Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə kodların Beynəlxalq Harmonik Sistemin 2022-ci il variantına uyğunlaşdırılması məqsədilə "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" qərar layihəsi hazırlanmış və razılaşdırılması üçün Komitənin 1000-120/001-22/018233 saylı və 1000-120/001-22/018233 saylı 25.11.2021-ci il tarixli məktubları ilə müvafiq olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir. Hazırda işçi qaydasında müzakirələr aparılır;

- "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsi Komitənin 1000-210/001-22/018688 nömrəli 02.12.2021-ci il tarixli məktubu ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilmiş və hal-hazırda baxılmaqdadır;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihələri müvafiq

məktublarla Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikası Maliyyə Nazirliyinə münasibət bildirilməsi üçün göndərilmiş və aidiyyəti üzrə baxılmaqdadır;

- "Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avro-4 ekoloji normalarına uyğunlaşdırılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 2 nömrəli Qərarında və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihələri hazırlanaraq əlavə sənədlərlə birlikdə 1000-140/001-21/001503 nömrəli 30.01.2021-ci il tarixli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur;

- Şəxslər tərəfindən gömrük sərhədindən keçirilən xidməti və mülki silahlar, onların sursatları üzərində gömrük nəzarətinin daha səmərəli və sürətli qaydada həyata keçirilməsi üçün xidməti istifadə məqsədilə "Xüsusi kitabça"ların hazırlanması ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə 12.04.2021-ci il tarixli 1000-140/006-22/005755 nömrəli məktub ünvanlanmışdır.

Qeyd olunanlarla yanaşı ötən il ərzində Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər əsasında yerli istehsalın qorunması sahibkarlığa dəstək məqsədilə gömrük rüsumundan və əlavə dəyər vergisindən azadolmaları özündə ehtiva edən bir sıra qərarlar qüvvəyə minmiş, bəzilərinin isə qüvvədə olma müddəti artırılmışdır: Belə ki:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 yanvar 2021-ci il tarixli 5 saylı Qərarı ilə ölkədə velosiped istehsalı sənayesinin inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması məqsədilə sənaye yığımı üçün idxal edilən ehtiyat hissələrinin idxalına tətbiq edilən 0 faiz idxal gömrük rüsum dərəcələrinin müddəti 3 ilədək uzadılmışdır;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2021-ci il tarixli 11 saylı Qərarı ilə təsdiqlənmiş safqanlı cins inəklərin ana və əcdad cinsi xətti ilə çoxaldılan cücələrin idxalına tətbiq edilən 0 faiz idxal gömrük rüsumunun müddəti 31.12.2023-cü il tarixinədək uzadılmışdır;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 aprel 2021-ci il tarixli 119 saylı Qərarı ilə pikelləşdirilmiş qoyun və quzu dərilərinin ixrac gömrük rüsumunun dərəcəsi 500 ABŞ dollarından 150 ABŞ dollarına, nəm halda qoyun və quzu dərilərinin ixrac gömrük rüsumlarının dərəcəsi 150 ABŞ dollarından 50 ABŞ dollarına endirilmişdir;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 aprel 2021-ci il tarixli 88 saylı Qərarı ilə almaz, platin, gümüş, qızıl və onlardan hazırlanan məmulatların idxal gömrük rüsum dərəcəsi 15 faizdən 0 faizə endirilmişdir;

- “Füzuli, Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi üçün idxal edilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18.06.2021-ci il tarixli 174 saylı Qərarı ilə təsdiq edilmişdir. Belə ki, siyahıda qeyd olunan malların idxalı zamanı idxal gömrük rüsumlarından azadolmalar nəzərdə tutulmuşdur;

- Qaradağ Sənaye Parkının rezidenti tərəfindən təsdiqedici sənəd əsasında fəaliyyətinin məqsədləri üçün bütün növ malların idxalı zamanı Azərbaycan Respublikasının 30.09.2021-ci il tarixli 378-VIQD saylı Qanunu ilə əlavə dəyər vergisi üzrə və Azərbaycan Respublikasının 30.09.2021-ci il tarixli 379-VIQD saylı Qanunu ilə idxal gömrük rüsumları üzrə güzəştlərin müddəti 5 ildən 10 ilə artırılmışdır;

- “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalar və müharibənin partlayıcı qalıqlarından təmizlənməsi üçün idxal edilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.11.2021-ci il tarixli 337 saylı Qərarı ilə təsdiq edilmişdir. Belə ki, siyahıda qeyd olunan malların idxalı zamanı 5 il müddətində idxal gömrük rüsumlarından azadolmalar nəzərdə tutulmuşdur;

- Azərbaycan Respublikasının 23.02.2021-ci il tarixli 266-VIQD saylı Qanunu ilə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.27-ci maddəsinə əsasən buğdanın idxalı və satışı zamanı əlavə dəyər vergisi üzrə tətbiq edilən güzəştlərin müddəti 4 ildən 7 ilə artırılmış, həmçinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.54-cü maddə əlavə edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.54-cü maddəsinə əsasən qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı 2021-ci il yanvarın 1-dən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilmişdir;

- Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiqedici sənədi əsasında yeni növ koronavirus(COVID-19) infeksiyalarına qarşı vaksinlərin və həmin vaksinlər üçün nəzərdə tutulmuş şprislərin idxalı 2021-ci il yanvarın 1-dən 2 il müddətinə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12.01.2021-ci il tarixli 6 saylı qərarına əsasən idxal gömrük rüsumlarından və Azərbaycan Respublikasının 30.12.2020-ci il tarixli 248-VIQD saylı Qanunu ilə əlavə dəyər vergisindən azad edilmişdir;

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təsdiqedici sənədi əsasında iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində avadanlıqların və materialların idxalı Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.52-ci maddəsinə əsasən 2021-ci il yanvarın 1-dən 2 il müddətinə əlavə dəyər vergisindən azad edilmişdir;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 fevral 2021-ci il tarixli 36 saylı Qərarı ilə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə buğda və meslinin, həmçinin buğda və çovdar ununun 1000 kq üçün 200 ABŞ dolları həcmində müvəqqəti ixrac gömrük rüsumu tətbiq edilmişdir.

Yuxarıda qeyd olunan qanunvericilik aktları ilə yanaşı, gömrük işini tənzimləyən Komitə daxili Sərəncam və Kollegiya Qərarları hazırlanaraq təsdiq edilmişdir.

## V. GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİ VƏ TİCARƏTİN ASANLAŞDIRILMASI VƏ GÖMRÜK RİSKLƏRİNİN İDARƏ OLUNMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş prioritet hədəflər çərçivəsində Dövlət Gömrük Komitəsi mallar və nəqliyyat vasitələri üzərində həyata keçirilən gömrük nəzarətinin səmərəliliyinin artırılması, sadələşdirilmiş gömrük nəzarəti metodlarının tətbiqi, ticarətin asanlaşdırılması və beynəlxalq miqyasda əməkdaşlığın gücləndirilməsi, tranzit potensialının inkişaf etdirilməsi, o cümlədən gömrük sisteminin beynəlxalq təcrübə nəzərə alınmaqla daha müasir və yeni çağırışlara cavab verən model əsasında formalaşdırılması əsas istiqamətlərdən biri kimi diqqət mərkəzində saxlanmışdır.

Ümumdünya Gömrük Təşkilatının tövsiyələrinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, xarici ticarət iştirakçılarında könüllü riayət mədəniyyətinin formalaşdırılması, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin daha çevik və şəffaf həyata keçirilməsi məqsədilə 2019-cu ilin 1 fevral tarixindən etibarən tətbiq edilən "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 2021-ci il ərzində 206 xarici ticarət iştirakçısı müraciət etmişdir. Daxil olmuş müraciətlərin təhlilinin nəticəsi olaraq 33 xarici ticarət iştirakçısına ixrac, 63 xarici ticarət iştirakçısına idxal əməliyyatları üzrə, ümumilikdə 96 xarici ticarət iştirakçısına "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir. Bunlardan hüquqpozma faktlarının araşdırılması nəticəsində idxal əməliyyatları üzrə 2 xarici ticarət iştirakçısının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ dayandırılmışdır.

Ümumilikdə 1 fevral 2019-cu ildən etibarən daxil olmuş müraciətlərin təhlilinin nəticəsi olaraq 266 xarici ticarət iştirakçısına ixrac, 491 xarici ticarət iştirakçısına idxal əməliyyatları üzrə, cəmi 757 xarici ticarət iştirakçısına "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir. Bunlardan hüquqpozma faktlarının araşdırılması nəticəsində ixrac əməliyyatları üzrə 2, idxal əməliyyatları üzrə 2 olmaqla cəmi 4 xarici ticarət iştirakçısının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ dayandırılmışdır.

13 fevral 2021-ci il tarixində Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) birgə təşkilatçılığı ilə sahibkarlar üçün onlayn formatında seminar keçirilmişdir.

30 noyabr 2021-ci il tarixindən etibarən yenidən keçirilməsinə start verilən ixtisas attestatının əldə edilməsinə dair imtahanlarda gömrük təmsilçiliyi fəaliyyəti ilə məşğul olan 104 şirkətdən 247 nəfər iştirak etmiş, onlardan 20 nəfər uğurlu nəticə qazanmışdır.

Ümumilikdə, gömrük mütəxəssislərinin peşəkarlıq səviyyələrinin artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 2019-cu ilin avqust ayından etibarən "İxtisas Attestatının" verilməsi ilə əlaqədar olaraq 18 imtahan keçirilmişdir. Malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması, yaxud tranziti ilə əlaqədar olaraq dolayı gömrük təmsilçiliyi fəaliyyətinin həyata keçirilməsi üçün 260 şirkətin Komitə tərəfindən reyestri aparılmış və ümumilikdə 469 ixtisas attestatına malik mütəxəssisin elektron xidmətlərdən istifadə hüququ aktivləşdirilmişdir.

Eyni zamanda reyestrə alınmış dolayı gömrük təmsilçiliyi fəaliyyəti göstərən hüquqi şəxslərin fəaliyyətinin təhlili aparılarkən 40-a yaxın hüquqi şəxsin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin qeydiyyat sistemində vergi uçotundan çıxarıldığı aşkar olunmuş və həmin şirkətlər Dövlət Gömrük Komitəsi

tərəfindən aparılan dolayı gömrük təmsilçiliyi fəaliyyəti göstərən hüquqi şəxslərin dövlət reyestrindən çıxarılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.10.2021-ci il tarixli 32958 nömrəli göstərişinə əsasən Dövlət Gömrük Komitəsi ilə əlaqələndirilməklə aidiyyəti dövlət və özəl sektorun nümayəndələrindən ibarət Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Sərhəddə ticarət” işçi qrupu nəzdində “Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviq edilməsi sahəsində təhlillərin, qiymətləndirmələrin aparılması və müvafiq təkliflərin hazırlanması üzrə” altqrupun yaradılması ilə bağlı, dövlət və özəl sektorun nümayəndələrindən ibarət altqrupun tərkibinə dair layihə Komitənin 2 noyabr 2021-ci il tarixli 1000-130/002-21/016825 nömrəli məktubu ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

2021-ci ildə sərhəd keçid məntəqələrinin yüklülüyünün azaldılması, sərhəd keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisində Ticarətin Asanlaşdırılması Mərkəzlərinin işinin genişləndirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubovun 29 yanvar 2021-ci il tarixli 2535/23760aid(2020) nömrəli tapşırığı ilə təsdiq edilmiş “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Sərhəddə ticarət” işçi qrupunun 2021-ci il üçün Fəaliyyət Planı”nın 1.1-ci bəndinə uyğun olaraq, Rusiya Federasiyası ilə sərhəddə yerləşən “Xanoba” gömrük postunun yaxınlığında Ticarətin Asanlaşdırılması Mərkəzinin tikintisi layihələndirilməkdədir.

Hesabat ilində malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti zamanı ticarətin asanlaşdırılmasını və prosedurların rəqəmsallaşdırılmasını özündə ehtiva edən “e-Pəncərə” (e-Window) sisteminin tətbiqinə dair tədbir “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Sərhəddə ticarət” işçi qrupunun növbəti 2022-ci il üçün “Fəaliyyət Planı”na uyğun olaraq, müvafiq dövlət qurumlarının rəyləri nəzərə alınmaqla Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi ilə birgə “Azərbaycan Respublikasının Ticarətin Asanlaşdırılması üzrə Milli Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı və Ticarətin Asanlaşdırılması üzrə Milli Komitənin struktur layihələri razılaşdırılmışdır. Eyni zamanda, Dövlət Gömrük Komitəsi ilə İqtisadiyyat Nazirliyi arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində Ticarətin Asanlaşdırılması üzrə Milli Komitənin yaradılması ilə bağlı Fərman layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur. Sözügedən fərman layihəsi 19 dövlət qurumu ilə razılaşdırılmış və son olaraq fərman layihəsinin Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə razılaşdırılması istiqamətində işlər aparılır.

“Ticarətin Asanlaşdırılması üzrə Milli Komitə”nin təsis edilməsi “e-Pəncərə” sisteminin səmərəli idarə edilməsinə, qurumlararası inteqrasiya prosesinin və əməkdaşlığın inkişafına, dövlət və özəl sektor arasında müntəzəm dialoqun təşkilinə, vaxt və xərclərə qənaət edilməsinə, yarana biləcək problemlərin optimal həllinə, o cümlədən ölkənin qlobal ticarətdə reytinqinin daha da yüksəldilməsinə xidmət edəcəkdir.

Müasir texnologiyaların tətbiqi ilə hədəfləmə sistemlərinin inkişaf etdirilməsi, əməkdaşların potensialının artırılması, səmərəli risk idarəetmə sisteminin formalaşdırılması, o cümlədən “Azərbaycanda “Sərnişinlərə dair ilkin məlumat (API) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemlərinin qurulması” istiqamətində Dövlət Gömrük Komitəsi tərəfindən tədbirlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq tapşırığına uyğun olaraq, “Azərbaycanda “Sərnişinlərə dair ilkin məlumat” (API) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemlərinin qurulması” üzrə yaradılmış işçi qrupuna Dövlət Gömrük Komitəsi tərəfindən rəhbərlik edilir və hədəflərə nail olunması məqsədilə, Birləşmiş Millətlər Təşkilatının Terrorla Mübarizə İdarəsinin mütəxəssisləri ilə birgə Azərbaycanda API/PNR sistemlərinin tətbiqi mərhələlərini əhatə edən “Yol Xəritəsi” sənədi hazırlanmışdır.

Azərbaycanda API və PNR proqramlarının müvəffəqiyyətlə qurulması və istifadəsi məlumatların gömrük orqanlarına əvvəlcədən ötürülməsinin təmin edilməsi ilə gömrük, aviaşirkətlər və digər maraqlı tərəflərin mövcud prosedurlarının sadələşdirilməsinə və artırılmasına, ölkəmizin milli maraqlarına zərər verə biləcək şəxslərin və malların, terrorizm və qaçaqmalçılığın, transmilli cinayətkarlığın, o cümlədən çirkli pulların yuyulmasının qarşısının alınmasına, məlumat analizi bazasının inkişaf etdirilməsinə, gömrük nəzarətinin idarəedilməsi üçün risk əsaslı modelin yaradılmasına xidmət edəcəkdir. Həmçinin, proqramlarının tətbiqi idarəetmə strategiyasının gücləndirilməsinə, səyahətçilərin gömrük sərhəd buraxılış məntəqələrindən sürətli keçidinin təmin edilməsinə, həmçinin milli qanunvericiliyin Çikaqo Konvensiyasının 9-cu əlavəsində göstərilmiş beynəlxalq standartlara və öhdəliklərə, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, Ümumdünya Gömrük Təşkilatının tövsiyələrinə, standartlarına və üsullarına uyğunlaşdırılmasına imkan yaradacaqdır.

Hesabat ilində Beynəlxalq Yük Daşımalarında iştirak etmək üçün 4 hüquqi şəxsə icazə verilmiş, 1 hüquqi şəxsin icazəsi bərpa olunmuş və 1 hüquqi şəxsin icazəsi ləğv edilmişdir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20.02.2020-ci il tarixli 64s saylı Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə təhrif edilmiş formada istinad edən xəritələrdən istifadə hallarının qarşısının alınmasına dair Tədbirlər Planı”nın 16-cı bəndinin icrası ilə bağlı Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilən tədbirlər barədə məlumatlar rüblük əsasda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Gömrük sərhəd buraxılış məntəqələrinin mövcud potensialından daha səmərəli istifadə olunması, Dövlət Gömrük Komitəsinin sərəncamında olan resursların daha riskli sahələrə yönləndirilməsi, eləcə də gömrük orqanlarında beynəlxalq tələblərə cavab verən risklərin idarəolunması sisteminin yaradılması məqsədilə Ümumdünya Gömrük Təşkilatının “Risk Menecment Kompendiumu”nun sərhəd risklərinin idarəolunması üçün istifadə edilən əsas risk meyarları, sərhəd risklərinin idarəolunması üzrə qabaqcıl beynəlxalq təcrübə öyrənilmişdir. İdxal, ixrac və tranzit əməliyyatlarını həyata keçirən yük avtomobillərinin gömrük sərhəd buraxılış məntəqələrindən risk-əsaslı avtomatlaşdırılmış sistem vasitəsilə keçidinin təmin edilməsini özündə ehtiva edən sərhəd risklərinin idarəolunması sisteminin modulu layihəsi hazırlanmış və hal-hazırda Risklərin Avtomatlaşdırılmış İdarəetmə Sistemində (RAİS)-də test edilərək mərhələli şəkildə tətbiq edilməkdədir.

Hesabat ilində Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə mal kodlarının, gömrük dəyərinin düzgün bəyan olunmaması, idxal olunan mallar üzrə çəki fərqləri təhlil edilmiş riskli mal mövqeləri və həmçinin bir sıra risk meyarları nəzərə alınmaqla risk hallarının minimallaşdırılması məqsədilə müvafiq risk profilləri tətbiq edilmişdir. Beləliklə 17 (on yeddi) risk profili deaktiv edilərək, 44 (qırx dörd) yeni risk profili sistemə əlavə edilmişdir. Eyni zamanda əvvəllər qüvvəyə minmiş profillərin təkmilləşdirilməsi və nəticələrinin monitorinqi üzrə müvafiq yeniləmələr davamlı olaraq nəzarətdə saxlanılmışdır.

Müəyyən olunmuş risk göstəriciləri əsasında 671 gömrük bəyannaməsi üzrə riskli əməliyyatlar aşkar olunmuş və nəticədə 10 653 683 97 (on milyon altı yüz əlli üç min altı yüz səksən üç manat doxsan yeddi qəpik) manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

İdxal-ixrac göstəricilərinin daha dərin təhlil edilməsi, nəticələrinin vizuallaşdırılması və həmçinin normalar üzrə kənarlaşmanın avtomatlaşdırılmış qaydada xəbərdarlıq məlumatlarının alınması məqsədilə “Tableau” proqram təminatının tətbiqinə başlanılmışdır. Qeyd olunan sistem vasitəsilə Komitə tərəfindən Xarici İqtisadi Fəaliyyət iştirakçılarının göstəriciləri, idxal olunan malların dinamikası, ölkələr üzrə məlumatlara dair hesabatların hazırlanması ilə yanaşı idxal əməliyyatlarının gömrük dəyəri və netto/brutto çəki nisbətlərinin nəqliyyat növündən asılı olaraq “Standart deviation”nin (Standartdan kənarlaşma) proqramlaşdırılmış riyazi tətbiqi nəticəsində uyğunsuzluqlar, eynicinsli mallar üzrə gömrük dəyərinin müəyyən edilməsi zamanı ortaya çıxan fərqlər və şirkətlərin ilk idxal əməliyyatları kimi məlumatların avtomatlaşdırılmış qaydada əldə olunması təmin edilmişdir.

2021-ci il ərzində Komitənin tabeliyində olan ümumilikdə 6 gömrük orqanının fəaliyyəti Komitə sədrinin müvafiq sərəncamlarına əsasən audit olunmuş və yoxlama nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılması və təkrarlanmaması üçün müvafiq tədbirlər görülmüşdür.

Komitənin hədəf mərkəzində bütün yük nəqliyyat vasitələrinin trayektoriya üzrə hərəkətləri ilə bağlı (marşrutdan çıxma, dayanma, yubanma və s.) məlumatlar fasiləsiz olaraq araşdırılmış və təxirəsalınmaz tədbirlər görülmüşdür. Mobil gömrük şöbələri tərəfindən hesabat dövrü ərzində 208000-dən artıq GPS qurğusu nəqliyyat vasitələrinin üzərinə quraşdırılaraq elektron xəritə üzərindən müşahidə edilmiş və mobil gömrük şöbələri tərəfindən 114 ədəd nəqliyyat vasitəsi fiziki müşayiətlə təyinat gömrük orqanına çatdırılmışdır.

## VI. TEXNOLOJİ VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ GÖRÜLƏN TƏDBİRLƏR

Hesabat ili ərzində elektron gömrük xidmətləri sahəsində Dövlət Gömrük Komitəsinin rəsmi saytında yeni funksional bölmələr yaradılmış, məlumatlar mütəmadi yenilənmişdir.

Belə ki, 2021-ci ildə “Smart Customs” mobil tətbiqinin yeni versiyası hazırlanmış və e.customs.gov.az portalında təqdim edilən elektron xidmətlərdən 5-i mobil tətbiqə inteqrasiya edilmişdir. Qeyd edək ki, “Smart Customs” mobil tətbiqi “NETTY-2021” Azərbaycan Milli İnternet Müsabiqəsində “Dövlət və Cəmiyyət” nominasiyası üzrə ilin mobil tətbiqi elan edilmişdir.

Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikasına dair məlumatlara əlçatanlığın təmin edilməsi məqsədilə “Ticarət statistikası” portalı istifadəyə verilmişdir.

“Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hallarda idxal-ixrac vergilərindən azadolma haqqında sertifikatın verilməsi" elektron gömrük xidmətində təkmilləşdirmələr aparılmış, əməliyyatlarla bağlı gömrük tədbirlərinin istənilən gömrük orqanında həyata keçirilməsinin mümkünlüyü təmin edilmişdir. www.e.customs.gov.az portalı üzərindən göstərilən xidmətlərin sayı 13-ə çatdırılmışdır.

Qeyd olunanlarla yanaşı Komitənin rəsmi saytında yeni funksional bölmələr əlavə edilmiş bəziləri isə daha da təkmilləşdirilmişdir. Bu bölmələrə “Sərhədkeçmə məhdudiyyətinin yoxlanılması”; “Sadələşdirilmiş bəyannamə - elektron ticarət”; “Gömrük

ödənişlərinin ödəyicisinə eyniləşdirmə nömrəsinin (GÖÖEN) verilməsi"; "Sənədlərin qeydiyyatı"; "İdxal-ixrac əməliyyatlarının statistikası"; "Karqo daşımaları"; "Poçt və ya Kuryer daşımaları"; "Gömrük əməliyyatları üzrə imza səlahiyyətlərinin verilməsi"; "e-Gömrük bəyannaməsinə baxış"; "Pul köçürmələri"; "Məlumatlarım"; "Müraciətlər" "Bildirişlər" adlı bölmələr daxildir. Həmçinin, "Sərhəd gömrük buraxılış məntəqələrindən keçən nəqliyyat vasitələrinin keçmə vaxtları" və "Gömrük İdarələri üzrə gömrük rəsmiləşdirilməsinin başa çatdırılmasına sərf olunan vaxtı" mütəmadi olaraq Komitənin rəsmi saytında yenilənmişdir.

İnteqrasiya və məlumat mübadiləsi sahəsində 2021-ci il ərzində qarşıya qoyulan tapşırıqların icra edilməsi davam etdirilmişdir. Belə ki:

- Fiziki şəxslər tərəfindən ölkə ərazisinə gətirilən silahlar haqqında məlumatların real vaxt rejimində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ötürülməsi təmin edilmişdir;

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin informasiya sistemi ilə Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) arasında İnvestisiya təşviq sənədlərinə dair məlumat mübadiləsinin aparılması təmin edilmişdir;

- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən malın idxalına görə verilən icazə sənədlərinin əldə olunması təmin edilmişdir;

- Sərhəd keçid məntəqələrindən keçən nəqliyyat vasitələri üzrə icbari sığorta müqavilələrinin yoxlanılması məqsədilə Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi ilə İcbari Sığorta Bürosunun məlumat sistemi arasında inteqrasiyası təmin edilmişdir;

- Ölkəmizdə fəaliyyət göstərən müəssisələrin, iş yerləri, vakansiya yerləri, işçiləri, o cümlədən vətəndaşların iş yerləri haqqında məlumatların əldə edilə bilməsi məqsədilə VAİS-lə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemi arasında inteqrasiya təmin edilmişdir;

- Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Azadolmaların qiymətləndirilməsi" sistemi ilə VAİS arasında məlumat mübadiləsi təkmilləşdirilmiş, vergi və gömrük sahəsində verilmiş güzəştlərə dair məlumatlar üzrə Maliyyə Nazirliyinin "Mərkəzləşdirilmiş Elektron Reyestr Sistemi" arasında inteqrasiya işləri yekunlaşdırılmışdır;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyası Federal Gömrük Xidməti, Ukrayna Dövlət Fiskal Xidməti, Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi, Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsi və Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında xarici ticarətin gömrük statistikası üzrə 2020-ci ilin IV rübü, 2020-ci il (illik) və 2021-ci ilin I-III rübləri üçün informasiyanın elektron mübadiləsi həyata keçirilmişdir;

- Müqayisəli statistik təhlillərin aparılması məqsədilə Azərbaycan Respublikasının ticarət tərəfdaşı olan ölkələrlə xarici ticarətin gömrük statistikası məlumatlarının mübadiləsi sahəsində işlər davam etdirilmişdir. Almaniya, Yaponiya, Pakistan, Türkiyə və Böyük Britaniya dövlətlərinin gömrük xidmətlərinə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə həmin dövlətlərin gömrük xidmətləri arasında qarşılıqlı xarici ticarətin gömrük statistikası üzrə məlumat mübadiləsinin aparılması təklifi ilə müraciət olunmuşdur;

2021-ci ildə innovasiya texnologiyalarının tətbiqi və informasiya təhlükəsizliyi, o cümlədən layihələrin işlənilməsi, tətbiqi və idarəolunması və xarici ticarətin gömrük statistikası sahələrində müvafiq işlərin görülməsi mütəmadi olaraq təkmilləşdirmə aparılmışdır.

Qeyd edək ki, ölkədə pandemiya şəraiti ilə əlaqədar olaraq gömrük sistemində formalaşdırılmış 3-cü “Könüllü gömrükçü” dəstəsinin fəaliyyətinə müvəqqəti fasilə verilmişdir. 2021-ci ilin 22 fevral tarixindən könüllülərin fəaliyyəti yenidən bərpa olunmuş və 3-cü “Könüllü gömrükçü” dəstəsinin 145 nəfər üzvünə sertifikatların təqdim olunma mərasimi keçirilmişdir. Eyni zamanda gömrük sistemində 4-cü “Könüllü gömrükçü” dəstəsi formalaşdırılarkən 226 nəfər müsahibə mərhələsindən uğurla keçərək könüllü gömrükçü dəstəsinə seçilmişdir. 4-cü “Könüllü gömrükçü” dəstəsində fəaliyyətlərini uğurla başa vurmuş 203 nəfər şəxsə 30 oktyabr 2021-ci il tarixində sertifikatlar verilmişdir.

Dövlət Gömrük Komitəsinin Çağrı Mərkəzinin fəaliyyət istiqamətinə uyğun olaraq hesabat dövrü ərzində şəxslər tərəfindən Çağrı Mərkəzinə daxil olan müraciətlər diqqət mərkəzində saxlanılmışdır. Hesabat dövrü ərzində Çağrı Mərkəzinə 102 915 müraciət daxil olmuşdur.

## VII. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR

2021-ci ildə gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə digər ölkələrin gömrük orqanları ilə beynəlxalq normalara uyğun saziş, protokol və aidiyyəti sənədlər hazırlanmış və icrası baxımından aidiyyəti tədbirlər həyata keçirilmişdir. Belə ki:

- 14 aprel 2021-ci il tarixdə “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sadələşdirilmiş gömrük dəhlizi haqqında Anlaşma Memorandumunun Texniki şərtlər sənədi”;
- 14 aprel 2021-ci il tarixdə “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Sahəsində Birgə Komitənin dördüncü iclasının Protokolu”;
- 14 aprel 2021-ci il tarixdə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair tədbirlər planı”;
- 20 aprel 2021-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Yük Hədəfləmə Sisteminin (YHS) Azərbaycan gömrük xidmətində tətbiqi ilə bağlı görülmüş işlərin yekunlaşmasını nəzərdə tutan sənəd;
- 20 may 2021-ci il tarixdə Moskva şəhərində “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin elektron qaydada qarşılıqlı tanınması haqqında Protokol”;
- 29 sentyabr 2021-ci il tarixində Bakı şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhəd buraxılış məntəqələri haqqında Saziş”;
- 15 noyabr 2021-ci il tarixdə Ər-Riyad şəhərində “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş”;
- 8 oktyabr 2021-ci il tarixdə İzmir şəhərində “Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında Protokol” imzalanmış və Azərbaycan

Respublikasının Prezidentinin 20 dekabr 2021-ci il tarixli 1503 nömrəli Fərmanı ilə təsdiq edilmiş;

- Azərbaycan Respublikasının "Gömrük xidmətləri arasında Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqramı çərçivəsində Gömrük Xidmətlərinin və Liman Nəzarət Qruplarının Regionlararası Şəbəkəsinin yaradılması haqqında Anlaşma Memorandumu"na qoşulması məqsədilə adıçəkilən Memorandumun 2 saylı əlavəsi 4 avqust 2021-ci il tarixində imzalanmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 avqust 2021-ci il tarixli 28476 nömrəli icrasının təmin edilməsi məqsədilə hazırlanmış "Xanoba" gömrük sərhəd buraxılış məntəqəsində aparılan tikinti yenidənqurma işlərinə adekvat olaraq Rusiya tərəfdə yerləşən "Tahirkənd-Qazmalar" məntəqəsində də anoloji yenidənqurma işləri aparılması üçün hazırlanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyası Federal Gömrük Xidməti arasında Azərbaycan - Rusiya dövlət sərhədinin "Xanoba-Tahirkənd-Qazmalar" avtomobil keçid məntəqələrində qarşılıqlı fəaliyyətin təşkili haqqında Saziş" layihəsi Komitənin 29 noyabr 2021-ci il tarixli 1000-200/001-21/018442 saylı məktubu ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol"un və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol"un imzalanma səlahiyyəti Dövlət Gömrük Komitəsinin sədrinə verilmişdir.
Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara və gömrük işi sahəsində imzalanmış ikitərəfli sazişlərə müvafiq olaraq, 2021-ci il ərzində xarici ölkələrin gömrük xidmətlərinə gömrük işi sahəsində inzibati yardım göstərilməsi məqsədilə 235 sorğu göndərilmiş və 135 sorğuya cavab alınmışdır.

2021-ci il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən aşağıda qeyd edilən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər hazırlanmış, keçirilmiş və bu tədbirlərdə gömrük əməkdaşlarının iştirakı təmin edilmişdir. Belə ki:

- 14 yanvar 2021-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatı (ÜGT) Strategiyasının müəyyənləşdirilməsində strateji proqnozlaşdırma metodologiyasının istifadəsinə dair virtual regional seminarın təşkilinə dair onlayn görüş;
- 16 yanvar 2021-ci il tarixdə "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 14-cü iclasının Anlaşma Memorandumu" layihəsinin müzakirəsi ilə bağlı virtual iclas;
- 16 yanvar 2021-ci il tarixdə "Azərbaycan Respublikası, Əfqanıstan İslam Respublikası və Türkmənistan arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük və sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi"nin layihəsinin müzakirəsi ilə bağlı virtual iclas;
- 12-21 yanvar 2021-ci il tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Planlaşdırma Şurasının müvafiq Komitələrinin və Şuranın 31-ci virtual iclası;

- 21 yanvar 2021-ci il tarixdə CAREC-in Sərhəd-Keçid Xidmətlərinin Regional Səviyyədə Təkmilləşdirilməsi üzrə Bilik Mübadiləsi Modulları üzrə “Tək Pəncərə Sisteminin inkişafı” mövzusunda virtual seminar;

- 22 yanvar 2021-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatı (ÜGT) Harmonik Sistemin yenidən nəzərdən keçirilməsinə dair Alt-Komitənin 58-ci Sessiyası (onlayn);

- 21-26 yanvar 2021-ci il tarixlərində “Covid-19 vaksinlərinin təchizat zənciri və qanunsuz vaksinlərin təhlükəsi” mövzusunda Avropa regionunun gömrük xidmətinin əməkdaşları üçün virtual seminar;

- 25 yanvar, 1 və 11 fevral 2021-ci il tarixlərində Türk Dilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) üzv dövlətləri arasında həssas malların siyahısının müəyyən edilməsi üzrə virtual görüş;

- 28 yanvar 2021-ci il tarixdə ÜGT-nin Konteynerlərə aid Gömrük Konvensiyası üzrə İnzibati Komitənin 18-ci iclası;

- 29 yanvar 2021-ci il tarixdə GUAM-ın blokçeyn texnologiyalarının tətbiqi üzrə 2-ci vebinarı;

- 29 yanvar 2021-ci il tarixdə NCTS - Tvininq layihəsinin müzakirəsi ilə bağlı virtual iclas;

- 1 fevral 2021-ci il tarixdə “Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığa dair Fəaliyyət Planı”nın icrası ilə bağlı onlayn görüş;

- 3 fevral 2021-ci il tarixdə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Sərhəddə ticarət” işçi qrupunun virtual iclası;

- 9 fevral 2021-ci il tarixdə “Astara” (İran İslam Respublikası) gömrük sərhəd buraxılış məntəqəsində Azərbaycan və İran gömrük orqanlarının nümayəndələrinin görüşü;

- 15-16 fevral 2021-ci il tarixlərində ÜGT strategiyasının müəyyənləşdirilməsində strateji proqnozlaşdırmada istifadə üzrə regional virtual seminar;

- 16-17 fevral 2021-ci il tarixlərində ABŞ-ın İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramı və Federal Təhqiqatlar Bürosu (FBR) tərəfindən Azərbaycan gömrük əməkdaşları üçün “Kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə” mövzusunda videokonfrans;

- 18-19 fevral 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Regional Strukturlarının Qlobal İclası (virtual);

- 22-24 fevral 2021-ci il tarixlərində ÜGT-nin Potensialın Gücləndirilməsinə dair Komitənin 12-ci Sessiyası(virtual);

- 23-24 fevral 2021-ci il tarixlərində ABŞ-ın Energetika Departamentinin “Kütləvi Qırğın Silahlarının Yayılmaması üzrə Beynəlxalq İxrac Nəzarəti Proqramı”, həmçinin “İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramı” tərəfindən Azərbaycan gömrük əməkdaşları üçün “Kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması” mövzusunda onlayn seminar;

- 25 fevral 2021-ci il tarixdə “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində sərhəd-keçid prosedurlarının asanlaşdırılması üçün ilkin məlumat mübadiləsinə dair Saziş” layihəsinin onlayn müzakirəsi;

- 1-5 mart 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) dəyişdirilmiş redaksiyada Kioto Konvensiyasının İdarəetmə Komitəsinin 24-cü iclası (onlayn);

- 1-5 mart 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Yük Hədəfləmə Sistemləri üzrə Azərbaycan gömrük xidmətinin nümayəndələri üçün onlayn təlim;

- 2-4 mart 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) risklərin idarə edilməsi və hədəfləmə üzrə gömrük xidmətinin nümayəndələri üçün onlayn təlimlər;

- 9 mart 2021-ci il tarixdə "Avropa İttifaqı Biznes Hesabatı 2020" mövzusunda virtual konfrans;

- 11 mart 2021-ci il tarixdə "2021-2022-ci illər üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Özbəkistan Respublikasının Dövlət Gömrük Komitəsinin qarşılıqlı fəaliyyət Planı"nın layihəsinin razılaşdırılması üzrə virtual görüş;

- 15 mart 2021-ci il tarixdə ÜGT tərəfindən ingilis dilli gömrük əməkdaşları üçün nəzərdə tutulmuş Virtual Gömrük Orientasiya Akademiyasının (VGOA) 13-cü Sessiyası (onlayn);

- 15-16 mart 2021-ci il tarixlərində Rusiya Federasiyasının ölkəmizdəki Səfirliyinin nümayəndələrinin Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dövlət sərhədindəki "Samur", "Xanoba", "Şirvanlı" və "Zuxul" gömrük sərhəd buraxılış məntəqələri ilə tanış olmaları üçün Şimal Ərazi Baş Gömrük İdarəsinə səfər;

- 17 mart 2021-ci il tarixdə Əfqanıstan İslam Respublikasının gömrük xidmətinin ekspertləri üçün seminar;

- 18 mart 2021-ci il tarixdə 2020-ci ilin dekabr ayında keçirilmiş ÜGT-nin Siyasi Komissiyasının və Şuranın iclaslarının nəticələrinə əsasən həyata keçirilən fəaliyyətlərin davam etdirilməsi üçün növbəti tədbirlərin planlaşdırılması, xüsusilə də iş metodlarının və prioritetlərin müəyyənləşdirilməsi üzrə videokonfrans;

- 6 aprel 2021-ci il tarixdə Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM-ın Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin 33-cü iclası;

- 13-14 aprel 2021-ci il tarixlərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Sahəsində Birgə Komitənin dördüncü iclası;

- 22 və 27 aprel 2021-ci il tarixlərində CAREC-in "Gömrük Əməkdaşlıq Komitəsi və Sanitar və Fitosanitar Tədbirlər üzrə Regional İşçi Qrup arasında Birgə Dialoq: Təhlükəsiz Ticarətin Asanlaşdırılması – Risklərin İdarəedilməsi və Rəqəmsallaşma" mövzusunda videokonfrans;

- 5 may 2021-ci il tarixdə ÜGT-nin sessiyalarının gündəliyində duran məsələlərin müzakirəsi ilə bağlı onlayn iclas;

- 17 may 2021-ci il tarixdə "Bergen sazişi"nə dair işçi qrupun növbəti iclası (virtual);

- 17 may 2021-ci il tarixdə ÜGT-nin Avropa regionunda "Köklü dəyişmə yaradan texnologiyalar" mövzusunda virtual seminar;

- 18 may 2021-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Ticarət Nazirliyinin nümayəndələri arasında gömrük risklərinin idarəolunması və rəsmiləşdirilmədən sonrakı audit yoxlamaları sahəsində təcrübə mübadiləsi ilə bağlı müzakirələr;

- 19 may 2021-ci il tarixdə Azərbaycan Respublikasının Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük-sərhəd buraxılış məntəqəsində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətləri arasında görüş;

- 20 may 2021-ci il tarixdə MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının ekspertlərinin virtual iclası;

- 25 may 2021-ci il tarixdə BYD Konvensiyasının 11-ci Əlavəsinin qüvvəyə minməsi ilə bağlı onlayn e-TİR tədbiri;

- 7 iyun 2021-ci il tarixdə ÜGT qurumlarına seçkilərlə bağlı MDB üzv dövlətlərin gömrük orqanlarının nümayəndələri arasında onlayn müzakirə;

- 8 iyun 2021-ci il tarixdə ÜGT Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin virtual Konfransı;

- 21-23 iyun 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 84-cü sessiyası;

- 24-26 iyun 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının 138-ci sessiyası;

- 29 iyun 2021-ci il tarixdə Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın Ticarətə və Nəqletməyə yardım layihəsinin Rəhbəredici Komitəsinin xüsusi iclası;

- 29 iyun - 1 iyul 2021-ci il tarixlərində Koreya Gömrük Xidməti tərəfindən Gömrük Modernləşdirilməsi üzrə Məsləhətləşmə Layihəsi çərçivəsində seminar;

- 30 iyun 2021-ci il tarixdə “Azərbaycan Respublikası, Əfqanıstan İslam Respublikası və Türkmənistan arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük və sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi”nin icrası ilə bağlı gömrük və sərhəd məsələləri üzrə alt işçi qrupunun iclası;

- 6 iyul 2021-ci il tarixdə Azərbaycan və İran gömrük xidməti rəhbərlərinin onlayn formatda görüşü;

- 4 avqust 2021-ci il tarixində sərhəddə gömrük nəzarəti və rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi üzrə Özbəkistan gömrük xidmətinin nümayəndələri üçün Azərbaycan təcrübəsinin öyrənilməsi mövzusunda işçi görüş;

- 5-8 oktyabr 2021-ci il tarixlərində Tacikistanın Düşənbə şəhərində keçirilmiş Strateji Ticarətə Nəzarətin Tətbiqi üzrə Milli Seminar;

- 11 oktyabr 2021-ci il tarixdə ÜGT-nin Virtual Gömrük Orientasiya Akademiyasının (VGOA) 14-cü Sessiyası;

- 25-26 noyabr 2021-ci il tarixlərində Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilmiş "Özbəkistan Respublikasının Mərkəzi Gömrük Laboratoriyasına ÜGT-nin "Regional Gömrük Laboratoriyası" statusunun verilməsinə dair Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi və ÜGT arasında Anlaşma Memorandumu"nun imzalanma mərasimində, eləcə də tədbir çərçivəsində keçirilmiş dəyirmi masa;

- 30 noyabr 2021-ci il tarixində Rusiya Federasiyasının Dərbənd şəhərində Azərbaycan Respublikası ərazisindən Rusiya Federasiyasının ərazisinə meyvə-tərəvəz məhsullarının keçirilməsi üzrə İşçi Qrupunun görüşü;

- 30 noyabr-1 dekabr 2021-ci il tarixlərində İNTERPOL-un təşkilatçılığı ilə Bolqarıstanın Sofiya şəhərində keçirilmiş Qafqaz və Mərkəzi Asiya regionu üzrə “Geiger” layihəsinin işçi qrupunun iclası;

- 1 dekabr 2021-ci il tarixində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Avropa Regionu üçün "Harmonikləşdirilmiş Sistem 2022-nin tətbiqi" mövzusunda onlayn seminar;

- 13-15 dekabr 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 85-ci sessiyası.

Hesabat ilində Dövlət Gömrük Komitəsinin rəhbərliyi aşağıdakı qeyd edilən bir sıra ikitərəfli tədbirdə iştirak etmişdir:

- 14 yanvar 2021-ci il tarixdə Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhak ilə görüş;
- 5 fevral 2021-ci il tarixdə Çilinin ölkəmizdəki səfirliyinin iqtisadi attaşesi ilə görüş;
- 9 mart 2021-ci il tarixdə Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Mixail Boçarnikov ilə görüş;
- 1 aprel 2021-ci il tarixdə tarixində ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının sabiq Ticarət naziri Ruhsar Pekcanla görüş;
- 5 aprel 2021-ci il tarixdə TDƏŞ Katibliyinin təşkilatçılığı ilə Türkiyə və Özbəkistan Respublikalarının nümayəndə heyətləri ilə görüş;
- 14 aprel 2021-ci il tarixdə Türkiyə ticarət nazirinin müavini Rza Tuna Turaqayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş;
- 15 aprel 2021-ci il tarixdə Türkiyə Respublikasının ölkəmizdəki sabiq səfiri Erkan Özoralla görüş;
- 20 may 2021-ci il tarixdə Moskva şəhərində Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavinlə ilə görüş;
- 3 iyun 2021-ci il tarixdə Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüş;
- 4 iyun 2021-ci il tarixdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüş;
- 18 iyun 2021-ci il tarixdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüş;
- 11 iyul 2021-ci il tarixdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı, Türkiyə Respublikasının Gəncə şəhərindəki Baş konsulu, səfirliyin ticarət müşavirləri Dövlət Gömrük Komitəsinin aidiyyəti strukturlarının rəhbərləri ilə birlikdə Qərb Ərazi Baş Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Qırmızı Körpü" gömrük postunun fəaliyyəti ilə tanışlıq səfəri;
- 14 iyul 2021-ci il tarixdə Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviç ilə görüş;
- 3 avqust 2021-ci il tarixdə Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov ilə görüş;
- 5 avqust 2021-ci il tarixində Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin gömrük məsələləri üzrə müşaviri Georgiy Pesçanskixın rəhbərlik etdiyi nümayəndə heyəti Şimal Ərazi Baş Gömrük İdarəsinin Rusiya Federasiyası ilə sərhəddə yerləşən "Samur" və "Xanoba" gömrük postlarının fəaliyyəti ilə tanışlıq;
- 7 sentyabr 2021-ci il tarixdə Türkiyə Respublikasının Ticarət Nazirliyi Gömrük Hüquq-Mühafizə Baş İdarəsinin əməkdaşları ilə görüş;
- 7 sentyabr 2021-ci il tarixdə Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer ilə görüş;
- 9 sentyabr 2021-ci il tarixdə Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları ilə görüş;
- 18 sentyabr 2021-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ilə onlayn formatda görüş;

- 22 sentyabr 2021-ci il tarixində Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Dr. Hande Harmancı və Almaniyanın Azərbaycandakı səfiri Dr. Volfqanq Maniq ilə görüş;

- 23 sentyabr 2021-ci il tarixdə İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüş;

- 8 oktyabr 2021-ci il tarixdə Türkiyə Respublikasının İzmir şəhərində Azərbaycan Respublikası, Türkiyə Respublikası və Gürcüstan gömrük xidməti rəhbərləri ilə görüş;

- 22 oktyabr 2021-ci il tarixdə Ukrayna Dövlət Gömrük Xidmətinin sədrinin müavini Ruslan Çerkasskiy ilə görüş;

- 25 oktyabr 2021-ci il tarixdə Hüquq-Mühafizə Təlimləri üzrə Avropa İttifaqı Agentliyinin (CEPOL) icraçı direktoru Detlef Şröderin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş;

- 27 oktyabr 2021-ci il tarixdə Mərkəzi Gömrük Hospitalında Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin nümayəndə heyəti ilə görüş;

- 31 oktyabr - 4 noyabr 2021-ci il tarixlərində Qırğız Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin və ATƏT-in Bişkek Ofisinin nümayəndə heyəti ilə görüş;

- 15 noyabr 2021-ci il tarixdə Ər-Riyad şəhərində Səudiyyə Ərəbistanı Krallığının Zəkat, Vergi və Gömrük Orqanının Baş direktoru Suheyl bin Məhəmməd Əbənimi ilə görüş;

- 25 noyabr 2021-ci il tarixdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş;

- 25 noyabr 2021-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Baş katibinin müavini Ricardo Treviño Chapa ilə (videoformat) görüş;

- 29 noyabr 2021-ci il tarixdə TRACECA HA Komissiyasının Daimi Katibliyinin Baş katibi Aset Asavbaev ilə görüş;

- 29 noyabr 2021-ci il tarixdə Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin (CARİCC) direktoru, milis general-mayoru Rustam Miralizodanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş;

- 21 dekabr 2021-ci il tarixdə BMTNCİ-nin Mərkəzi Asiya üzrə regional nümayəndəsi Aşita Mittal ilə görüş.

Məlum olduğu kimi, Dövlət Gömrük Komitəsi 2019-2021-ci illər ərzində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə sədr müavini seçilmişdir. Qeyd olunan dövr ərzində Azərbaycanın Sədr müavinliyi ilə bağlı mühüm işlər görülmüş və bir sıra görüşlər keçirilmişdir. Belə ki:

- 15-16 fevral 2021-ci il tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) strategiyasının müəyyənləşdirilməsində strateji proqnozlaşdırma üzrə Regional Virtual Seminar;

- 18 mart 2021-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi və Şura sədri, eyni zamanda, Şuranın sədr müavinlərinin iştirakı ilə onlayn formatda görüş;

- Ümumdünya Gömrük Təşkilatının Baş katibi, Şura sədri və regional sədr müavinlərinin iştirakı ilə 5 may 2021-ci il tarixdə növbəti virtual görüş;

- 17 may 2021-ci il tarixində Ümumdünya Gömrük Təşkilatının Avropa regionunda "Köklü dəyişmə yaradan texnologiyalar" sahəsində təcrübə mübadiləsi mövzusunda seminar;

- 17 may 2021-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrliyi ilə "Bergen sazişi"nə yenidən baxılması üzrə işçi qrupunun ikinci iclası keçirilmişdir.

## VIII. GÖMRÜK SƏRHƏD BURAXILIŞ MƏNTƏQƏLƏRİNİN İŞİNİN TƏŞKİLİ, GÖMRÜK İNFRASTRUKTURU VƏ GÖMRÜK EKSPERTİZASI İLƏ ƏLAQƏDAR GÖRÜLƏN İŞLƏR

2021-ci il ərzində malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin sürətləndirilməsi, gömrük sərhəd buraxılış məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və gömrük siyasətinin həyata keçirilməsinin təmin edilməsi üzrə mühüm tədbirlər görülmüşdür. Belə ki:

- "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Sərhəddə ticarət işçi qrupunun 2021-ci il üçün Fəaliyyət Planı"nın 10-cu bəndinin icrasını təmin etmək məqsədilə gömrük sərhəd buraxılış məntəqələrindən keçən şəxslər, mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin effektivliyinin daha da artırılması məqsədilə gömrük sərhəd buraxılış məntəqələrinin mövcud infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı hazırlanmış təkliflər Komitənin 12 oktyabr 2021-ci il tarixli 1000-130/001-21/015724 saylı məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur;

- İşğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək verilməsi məqsədilə həmin ərazilərdə gömrük xidmətinin təşkili üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 10.09.2021-ci il tarixli 1000/140 nömrəli sərəncamı ilə Qubadlı rayonu ərazisində "Qubadlı", 22.11.2021-ci il tarixli 1000/193 nömrəli sərəncamı ilə Zəngilan rayonu ərazisində "Qazançı" və 23.11.2021-ci il tarixli 193 nömrəli sərəncamı ilə Füzuli rayonu ərazisində yerləşən Füzuli beynəlxalq hava limanında isə "Füzuli beynəlxalq hava limanı" gömrük postları yaradılaraq istifadəyə verilmişdir. "Qubadlı" və "Qazançı" gömrük postlarının fəaliyyətinin təşkili üçün bütün lazımi tədbirlər görülmüş, gömrük postları zəruri texniki avadanlıqlar və digər ləvazimatlarla təmin edilmişdir. "Qubadlı" gömrük postunda Gorus - Qafan avtomagistral yolunun Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisindən keçməklə ölkə ərazisinə daxil olan şəxslər, mallar və nəqliyyat vasitələri müvafiq qaydada gömrük və sərhəd nəzarətindən keçirilir, həmçinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 211-ci maddəsinə əsasən xarici dövlətlərin avtonəqliyyat vasitələri yol vergisinə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 24-cü maddəsinə əsasən dövlət rüsumuna cəlb olunur və toplanmış gömrük ödənişləri dövlət büdcəsinə köçürülür;

- Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2020-ci il tarixli Sərəncamına uyğun olaraq Rusiya Federasiyası ilə sərhədimizdə yerləşən "Xanoba" gömrük postunda aparılan tikinti yenidənqurma işləri daha da sürətləndirilmiş və yaxın gələcəkdə qeyd olunan gömrük sərhəd buraxılış məntəqəsinin fəaliyyətə başlaması nəzərdə tutulmuşdur;

- Rusiya istiqamətində mövsümi xarakterli malların ixracının və tranzit daşınmasının həcminin artması səbəbindən Rusiya Federasiyası ilə sərhədimizdə yerləşən "Samur" - "Yaraq-Qazmalar" gömrük sərhəd buraxılış məntəqələrində sıxlıqların müşahidə edilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığına əsasən Azərbaycan Respublikasından Rusiya Federasiyasına kənd təsərrüfatı məhsullarının ixracı ilə əlaqədar yaranmış problemlərin aradan qaldırılması və gələcəkdə təkrarlanmaması üçün Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət

işçi qrupunun iclasında növbələrin və sıxlığın yaranmaması üçün təkliflər hazırlanaraq Komitənin 22.06.2021-ci il tarixli 1000-140/001-21/02082 nömrəli məktubu ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Həmçinin, bu məqsədlə "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Qida və Baytarlıq Xidməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasına qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş" və Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş" layihələrinə dair rəy və təkliflər hazırlanaraq müvafiq olaraq 16 fevral 2021-ci il tarixli 1000-140/006-24/002467 saylı, 19 mart 2021-ci il tarixli 1000-140/006-24/004632 saylı və 21 may 2021-ci il tarixli 1000-140/006-24/008260 saylı məktubları ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi təqdim olunmuşdur.

Hesabat dövründə gömrük nəzarətinin daha səmərəli və effektiv təşkil olunması baxımından gömrük sərhəd buraxılış məntəqələrində bir sıra avadanlıqlar quraşdırılmışdır. Belə ki:

- Dövlət Gömrük Komitəsi ilə "Smiths Heimann" şirkəti arasında X-ray avadanlıqlarının əldə edilməsinə dair bağlanılmış müqavilələr əsasında əldə edilmiş 1 (bir) ədəd - HCVG 6040 və 1 (bir) ədəd - CIP 300 Compact markalı yoxlama baxış sistemləri yeni inşa edilən "Xanoba" gömrük sərhəd-keçid məntəqəsində quraşdırılmışdır;
- Çin Xalq Respublikasının "Nuctech" şirkəti ilə Dövlət Gömrük Komitəsi arasında bağlanmış müqavilə əsasında əldə edilmiş "PB2028TD" markalı yoxlama baxış sisteminin "Astara" gömrük sərhəd keçid məntəqəsində quraşdırılması başa çatdırılmışdır;
- Yeni inşa edilən "Xanoba" gömrük sərhəd-keçid məntəqəsində yük nəqliyyat vasitələrinin çəkisinin müəyyən edilməsi məqsədilə Türkiyə Respublikasının "Taralsa" şirkətinin istehsalı olan 4 (dörd) ədəd stasionar tipli tərəzi alınmışdır;
- "Qırmızı Körpü" gömrük sərhəd-keçid məntəqəsinin yaxınlığında yerləşən "Ticarətin Asanlaşdırılması Mərkəzində (TAM)" yük nəqliyyat vasitələrinin çəkisinin müəyyən edilməsi məqsədilə "Esit" şirkətindən 1 (bir) ədəd və "Taralsa" şirkətindən 1 (bir) ədəd stasionar tipli tərəzilər alınmışdır;
- "Füzuli Beynəlxalq Hava Limanı" gömrük postunda gömrük nəzarətinin səmərəli təşkili və həyata keçirilmə müddətinin azaldılması məqsədilə 1 (bir) ədəd Hi-Scan 100100T 2is, 1 (bir) ədəd Hi-Scan 7555 və 1 ədəd "Hİ-PE Plus" markalı metalaxtaran çərçivə quraşdırılaraq istismara hazır vəziyyətə gətirilmişdir.

Komitənin Mərkəzi Gömrük Ekspertizası İdarəsində istifadə edilməsi üçün ölkə ərazisinə idxal olunan yeni nəsil nəqliyyat vasitələri üzərində tam diaqnostik təhlilin həyata keçirilməsi məqsədilə "AUTEL" şirkətinin istehsalı olan "Maxi Sys MK906BT" markalı diaqnostika avadanlığı alınmışdır.

2021-ci il ərzində Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan İdarələrin, eləcə də sərhəd keçid məntəqələrində mütəmadi olaraq təmir-tikinti və yenidənqurma işləri görülmüşdür. Belə ki:

- Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının tikinti işləri davam etdirilmişdir;
- Mərkəzi Gömrük Hospitalının 5 mərtəbəli yeni korpusunun təmir və yenidən qurulması işləri davam etdirilmişdir;

- Şimal Ərazi Baş Gömrük İdarəsi "Xanoba" gömrük postunun kompleks tikinti işləri davam etdirilmişdir;

- Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postunda sərnişin nəqliyyatı binasının yenidən qurulması və genişləndirilməsi işləri yekunlaşdırılmışdir;

- Cənub Ərazi Baş Gömrük İdarəsi "Astara" gömrük postunun ərazisində yük avtomobillərinin yoxlanılması üçün "NUCTECH PB2028TD Fixed Scanner" rentgen qurğusunun tikinti işləri yekunlaşdırılmışdir;

- Cənub Ərazi Baş Gömrük İdarəsi "Astara" dəmiryolu gömrük postunda dəmiryolu üzərində "HCVT-6032" tipli X-RAY rentgen qurğusunun tikinti işləri yekunlaşdırılmışdir;

- Mərkəzi Gömrük Hospitalının poliklinika binasının ərazisində yeni inşa olunacaq reabilitasiya, stomatologiya və inzibati korpusunun layihə-smeta sənədləri hazırlanmışdır.

Hesabat dövrü ərzində Mərkəzi Gömrük Ekspertizası İdarəsinə tədqiqat üçün daxil olmuş 9 306 nümunə, nəqliyyat vasitələrinin idxalı ilə əlaqədar isə ekspress diaqnostik və verilənlər bazasındakı məlumatların təhlili əsasında 238 920 (iki yüz otuz səkkiz min doqquz yüz iyirmi) müxtəlif sınaq və analitik tədqiqatlar aparılmışdır.

## IX. KADR MƏSƏLƏLƏRİ, PEŞƏKARLIĞIN ARTIRILMASI, TİBBİ XİDMƏTİN GÖSTƏRİLMƏSİ VƏ KORONAVİRUS (COVİD-19) PANDEMİYASI İLƏ MÜBARİZƏYƏ DAİR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Hesabat ilində də normativ-hüquqi aktların tələblərinin pozulması hallarının vaxtında aşkar olunaraq aradan qaldırılması, xidməti və icra intizamının gücləndirilməsi sahəsində konkret tədbirlər həyata keçirilmiş, yerlərdə əməliyyat şəraitinin öyrənilməsi, gömrük orqanları və digər qurumların, eləcə də gömrük orqanı əməkdaşlarının fəaliyyəti üzrə məlumatların operativ şəkildə toplanması sahəsindəki mövcud sistemin təkmilləşdirilməsi işi davam etdirilmişdir.

2021-ci il ərzində işə qəbul, yerdəyişmə, xüsusi rütbənin verilməsi, işdən azad olunma, həvəsləndirmə tədbirləri, təhkim, təhkimdən geri çağırılma, müvəqqəti əvəz etmə, ezam olunma, məzuniyyət, məzuniyyətdən geri çağırılma əmrlərinin hazırlanması təmin edilmişdir. Müvafiq təqdimatlar və rotasiya qaydasında 239 əməkdaşın xidməti vəzifə yerinin dəyişdirilməsi 274 əməkdaşa ilkin və 749 əməkdaşa növbəti xüsusi rütbənin verilməsi barədə müvafiq əmrlər hazırlanmışdır.

Hesabat ili ərzində 110 əməkdaşa Fəxri Fərman, 116 əməkdaşa Təşəkkür, 135 əməkdaşa növbəti xüsusi rütbənin vaxtından əvvəl verilməsi, 41 əməkdaşa növbəti xüsusi rütbənin tutduğu vəzifə üçün nəzərdə tutulandan bir pillə yuxarı verilməsi, 12 əməkdaşın üzərindən tətbiq edilmiş intizam tənbehinin vaxtından əvvəl geri götürülməsi, 678 əməkdaşa pul mükafatı verilməsi, 10 əməkdaşa "Gömrük orqanlarında xidmətə görə" 1-ci dərəcəli döş nişanı, 32 əməkdaşa 2-ci dərəcəli döş nişanı, 71 əməkdaşa 3-cü dərəcəli döş nişanı, 20 əməkdaşa "Gömrük xidməti əlaçısı" döş nişanı, 41 əməkdaşa isə "Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə" döş nişanı ilə təltif olunmaları barədə müvafiq əmrlər hazırlanmışdır. Bundan əlavə 8 vətəndaşın "Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə" döş nişanı ilə, 5 vətəndaşın isə Fəxri Fərmanla təltif edilməsi barədə müvafiq əmrlər hazırlanmışdır.

Daxil olmuş müraciətlər üzrə və yoxlamaların nəticələri əsasında aparılmış araşdırmalar zamanı aşkar edilmiş xidməti pozuntulara yol verdiklərinə görə 147 gömrük

orqanı əməkdaşı intizam məsuliyyətinə cəlb edilmişdir. Bunlardan 13 nəfər gömrük orqanlarından xaric edilmiş, 3 nəfər tutduğu vəzifədən azad edilmiş, 3 nəfərin xüsusi rütbəsi bir pillə aşağı salınmış, 17 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 72 nəfərə töhmət elan edilmiş, 39 nəfərə irad tutulmuşdur.

Şəffaflığın və hesabatlılığın təmin edilməsi, bürokratik əngəllərin aradan qaldırılması, korrupsiya və digər hüquqpozmaların qarşısının alınması məqsədilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Korrupsiyaya qarşı mübarizə üzrə 2021-ci il üçün Tədbirlər Planı" hazırlanaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 29 dekabr 2020-ci il tarixli 1000/237 nömrəli sərəncamı ilə təsdiq edilmiş və 2021-ci il ərzində sözügedən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi istiqamətində müntəzəm qaydada iş aparılmışdır. Hesabat dövründə korrupsiya hüquqpozması və digər cinayət əməlləri törətməkdə təqsirli bilinən 3 gömrük orqanı əməkdaşının əməlinə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir. Həmçinin, malların gömrük rəsmiləşdirilməsi prosesində gömrük orqanı əməkdaşları tərəfindən süründürməçiliyə yol verilməklə qeyri-qanuni tələblərin irəli sürülməsi barədə daxil olmuş məlumat əsasında Komitənin Əməliyyat-İstintaq Baş İdarəsi tərəfindən dərhal Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət olunmuş, birgə keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cinayət törətməkdə təqsirli bilinən 8 gömrük orqanı əməkdaşı barəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ibtidai istintaq həyata keçirilmişdir.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalı COVID-19 infeksiyası ilə mübarizəyə qoşularaq pandemiya xəstəxanası kimi fəaliyyət göstərmiş, gömrük əməkdaşlarının və əhalinin sağlamlığının qorunması məqsədilə müvafiq işlər görülmüş, onlara tibbi xidmətin göstərilməsi təmin olunmuşdur. Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi mütəmadi olaraq gömrük əməkdaşları, Mərkəzi Hospitalın əməkdaşları arasında bilik və bacarıqlarının artırılması istiqamətində elmi toplantılar, təlim və seminarlar təşkil edir, beynəlxalq tədbirlərdə təcrübənin öyrənilməsini təmin etmək məqsədilə tibb işçilərinin yerli və beynəlxalq iştirak etmişlər.

Pandemiya ilə mübarizəni gücləndirmək məqsədilə Mərkəzi Hospitalda ən qısa zamanda yaradılmış PZR laboratoriyası hesabat ili ərzində aktiv fəaliyyət göstərmişdir. Hazırda bu laboratoriyanın fəaliyyəti ölkəmizdə SARS-CoV-2 virusuna yoluxma ehtimalı olan insanların, xüsusilə də gömrük əməkdaşlarının Real-Time PZR testlərindən keçirilməsi prosesindən ibarətdir. Hesabat ili ərzində cəmi 10552 ədəd PZR analizi verilmişdir. Eyni zamanda qeyd edək ki, infeksiyasiya ilə mübarizəni və yoluxmuş xəstələrə göstərilən tibbi xidmətin keyfiyyətini gücləndirmək məqsədilə Mərkəzi Hospitalda hazırda iki ədəd ekstrakorporal membran oksigenasiyası (ECMO) cihazı mövcuddur. Hesabat ilində Mərkəzi Hospitalda Covid-19 müalicəsi alan ümumi xəstələrin sayı 1112 nəfər təşkil etmişdir.

Koronavirus (COVID-19) pandemiyası ilə mübarizə üzrə qarşıya qoyulan vəzifələr və görülən tədbirlərlə yanaşı 2021-ci ildə də Dövlət Gömrük Komitəsi tərəfindən əhalinin saglamlığının qorunması və pandemiyanın ölkəmizdə daha geniş şəkildə yayılmasının qarşısının alınması məqsədilə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki:

- COVID-19 pandemiyası dövründə xəstəliyin xüsusiyyətlərini və spesifikasını nəzərə almaqla, sərhəd buraxılış məntəqələrinin və orada tətbiq edilən prosedurların Beynəlxalq Tibbi-Sanitariya Qaydalarının tələblərinə, o cümlədən ÜST tərəfindən hazırlanmış "Yerüstü

sərhəd keçid məntəqələrində COVID-19 yayılmasına nəzarət" tövsiyələrinə uyğunluğunun təmin edilməsi məqsədilə ÜST-nin ekspertləri ilə birgə Heydər Əliyev Beynəlxalq Hava limanında, "Beynəlxalq Dəniz Ticarət limanı", "Samur" və "Astara" gömrük postlarında qiymətləndirmə aparılmış və qiymətləndirmə haqqında ÜST-nin ekspertləri tərəfindən təqdim olunmuş hesabat təhlil olunaraq, müəyyən olunmuş nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 aprel 2021-ci il tarixli 11/257 nömrəli və 17 may 2021-ci il tarixli 11/390 nömrəli göstərişlərinə əsasən Dövlət Gömrük Komitəsinin aparatı və tabeliyində olan qurumlarda çalışan əməkdaşların koronavirus (COVID-19) xəstəliyinə qarşı vaksinasiyanın aparılması işinin təşkili, koordinasiyası və müvafiq hesabatların müəyyən olunmuş cədvəl formasına uyğun mütəmadi qaydada Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunması həyata keçirilmişdir;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin tərkibində yaradılmış müasir "PZR" laboratoriyasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aparatının bütün struktur bölmələrinin və Komitənin strukturuna daxil olan Ərazi və İxtisaslaşdırılmış Gömrük İdarələrinin əməkdaşlarının müvafiq qaydada COVID-19 müayinələrindən keçirilməsi işi təşkil olunmuşdur;

- Koronavirus (COVID-19) infeksiyasının yayılmasına qarşı profilaktik tədbirlərin aparılması çərçivəsində gömrük sərhəd buraxılış məntəqələrindən keçən şəxslərin və gömrük əməkdaşlarının məlumatlandırılması və təlimatlandırılması üçün Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri əsasında yeni posterlər hazırlanaraq gömrük sərhəd buraxılış məntəqələrinə göndərilmişdir; Koronavirus "COVID-19" infeksiyasına yoluxmuş gömrük əməkdaşları ilə təmasda olan digər əməkdaşlar, onların müayinədən keçirilmə tarixi və nəticələri barədə məlumatlar aidiyyəti üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim olunmuşdur;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən hazırlanmış "Dövlət Gömrük Komitəsi qurumlarında olan ictimai iaşə obyektlərində yeni növ koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair Təlimat", "Dövlət Gömrük Komitəsinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya tədbirlərinin təşkili və təmin edilməsinə dair Təlimat", "COVID-19 pandemiyası zamanı gömrük-sərhəd buraxılış məntəqələrində sanitariya-karantin nəzarətinin təşkilinə dair metodiki göstəriş" xidməti istifadə üçün Dövlət Gömrük Komitəsinin ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinə göndərilmişdir;

- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28.10.2021-ci il tarixli 11/829 nömrəli göstərişinə əsasən COVID-19 xəstəliyinə qarşı iki doza peyvənd olunmasından 150 gün müddət keçmiş Dövlət Gömrük Komitəsinin aparatı və tabeliyində olan qurumlarda çalışan əməkdaşların üçüncü (booster) doza ilə peyvənd olunmaları işinin təşkili, koordinasiyası və müvafiq hesabatların müəyyən olunmuş cədvəl formasına uyğun mütəmadi qaydada Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunması həyata keçirilmişdir;

- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və onun tabeliyində olan qurumların əməkdaşlarının koronavirus (COVID-19) xəstəliyinə qarşı yaranmış anticisimlərin miqdarının təyini məqsədilə aparılmış müayinələrə dair hesabatlar mütəmadi qaydada Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Hesabat dövründə Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsinin müddəalarına müvafiq olaraq fəaliyyətinin əsas istiqamətləri olan gömrük xidməti əməkdaşlarının peşəkar hazırlığı və ixtisasartırması, eləcə də bakalavriat və magistratura səviyyələrində mütəxəssis hazırlığı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

2020/2021-ci tədris ilinin yekunu olaraq Akademiyada İqtisadiyyat ixtisası üzrə 21, Hüquqşünaslıq ixtisası üzrə 20 tələbə bakalavriat səviyyəsindən məzun olmuşdur.

2021/2022-ci tədris ilində bakalavriat səviyyəsinə İqtisadiyyat, Hüquqşünaslıq, Beynəlxalq ticarət və logistika, İnformasiya təhlükəsizliyi və İnformasiya texnologiyaları ixtisaslarına 140 abituriyent, magistratura səviyyəsinə isə 9 bakalavr qəbul edilmişdir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Qlobal Sazişi və "Məsuliyyətli Menecment Təhsilinin Prinsipləri" proqramına üzvlüyü ilə yanaşı Akademiya Birləşmiş Millətlər Təşkilatının Akademik İmpakt təşəbbüsünə də üzv seçilmiş və hazırda hər üç proqram üzrə BMT-nin qlobal təşəbbüsünə üzv qəbul edilmiş yeganə Azərbaycan ali təhsil müəssisəsi və təlim qurumudur.

## X. DÖVLƏT ORQANLARI VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR ÜZRƏ GÖRÜLMÜŞ İŞLƏR

2021-ci il ərzində Dövlət Gömrük Komitəsinə mərkəzi icra hakimiyyəti orqanlarından, xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, müxtəlif təşkilatlar və hüquqi şəxslərdən, vətəndaşlardan, o cümlədən Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan qurumlardan cəmi 61586 sənəd daxil olmuş və bu müraciətlərə qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxılmış və cavablandırılmışdır. Həmçinin, Komitədən 20846 sənəd xaric olunmuşdur.

Dövlət Gömrük Komitəsinin əsas fəaliyyət istiqamətləri ilə bağlı 228 sərəncam, şəxsi heyət üzrə 844, əməkdaşların ezamiyyə və məzuniyyətləri ilə bağlı 1141 əmr, 14 qərar, 169 sertifikat və icazə qeydiyyata alınmışdır. İnzibati xəta haqqında iş üzrə 12 qərar qeydiyyata götürülmüş, Dövlət Gömrük Komitəsinin əməkdaşlarına verilmiş 129 müxtəlif arayış qeydə alınmışdır.

Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşması və bu siyasətin həyata keçirilməsi istiqamətində əhalinin məlumatlandırılması, qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın Dövlət Gömrük Komitəsinin rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilməsi və daimi olaraq yenilənməsi təmin edilmişdir. Hesabat dövründə Dövlət Gömrük Komitəsi rəhbərliyinin ölkənin müxtəlif televiziyalarına, tanınmış xəbər saytlarına və çap mediaya müsahibələri təşkil edilmiş və ictimaiyyətin diqqətinə çatdırılıb. 2021-ci ilin aprelin 7-də Dövlət Gömrük Komitəsinin "Ticarət Statistikası Portalı" layihəsinin, dekabrın 23-də isə Dövlət Gömrük Komitəsinin "e.customs.gov.az" portalı və "Smart Customs" mobil tətbiqinin yeni versiyalarının media nümayəndələrinin iştirakı ilə geniş təqdimatları keçirilmişdir.

Dövlət Gömrük Komitəsinin məlumatları il ərzində ölkənin aparıcı saytlarında, qəzetlərində və televiziya kanallarında yayımlanmışdır. Hesabat ilində saytlarda 69 782 məlumat yayımlanmış, qəzetlər üzrə il ərzində 1778 material dərc edilmiş, televiziya kanallarında isə il ərzində 795 süjet yayımlanmışdır.

Eyni zamanda Dövlət Gömrük Komitəsinin saytında olan materialların rəsmi "facebook", "instagram", "twitter", "linkedİn" və "telegram" səhifələrində, eləcə də video

materialların “youtube” kanalında yerləşdirilməsi, verilən sualların dərhal cavablandırılması təmin edilmişdir. 200-dən çox süjet və videoçarxların hazırlanaraq elektron kütləvi informasiya vasitələrində yayımlanması təmin edilmişdir. Ötən müddət ərzində 122 videoçarx hazırlanaraq ictimaiyyətə təqdim olunmuşdur.

2021-ci il ərzində 19 ədəd “Sual-cavab”, 26 ədəd həftəlik icmal videoçarxlar şəklində hazırlanaraq Komitənin sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilmişdir. Qeyd edək ki, il ərzində 168 videoçarx hazırlanaraq yayımlanıb ki, onlardan 73-ü Vətən müharibəsinin ildönümünə və Zəfər gününə həsr edilmiş videoçarxlardır. Eyni zamanda, ötən dövr ərzində müxtəlif mövzularla bağlı 40 poster hazırlanmışdır.

## XI. AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN 2021-Cİ İL 16 MART TARİXİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNDƏ 2020-Cİ İLDƏKİ FƏALİYYƏTİ HAQQINDA HESABATININ MÜZAKİRƏSİ ZAMANI DEPUTATLAR TƏRƏFİNDƏN GÖMRÜK XİDMƏTİNƏ DAİR VERİLMİŞ TƏKLİFLƏR, TÖVSİYƏLƏR VƏ İRADLARLA BAĞLI GÖRÜLƏN TƏDBİRLƏR

Azərbaycan Respublikasının Baş naziri cənab Əli Əsədovun 22 aprel 2021-ci il tarixli 12158 saylı göstərişinə əsasən 16 mart 2021-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ildəki fəaliyyəti haqqında hesabatının müzakirəsi zamanı Azərbaycan Respublikasının Milli Məclisində deputatlar tərəfindən irəli sürülmüş təklif və tövsiyələrin 70-ci bəndində “Azərbaycanda avtomobil parkının yenilənməsi ilə bağlı alternativ yanacaq ve elektrik enerjisi ilə işləyən avtomobillərin ölkəyə gətirilməsinin stimullaşdırılması” məsələsinin diqqətdə saxlanılması qeyd olunmuşdur.

Mövcud məsələ ilə əlaqədar bildiririk ki, “Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və digər dövlət qurumlarının birgə iştirakı ilə yaradılmış “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya”nın “Sərhəddə ticarət” işçi qrupunun “Elektrik mühərrikli və hibrid nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və təşviq edilməsi sahəsində təhlillərin, qiymətləndirmələrin aparılması və müvafiq təkliflərin hazırlanması” kimi mövzulara dair müzakirələr aidiyyəti dövlət orqanları ilə hazırda davam etdirilir və yuxarıda qeyd olunan tədbirlərin davamı olaraq elektrik və hibrid mühərrikli nəqliyyat vasitələrinin idxal və istifadəsinin stimullaşdırılması istiqamətində müvafiq işlər həyata keçirilir.

Qeyd edək ki, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” 3 dekabr 2021-ci il tarixli 406-VIQD saylı Qanuna əsasən istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı, eyni zamanda elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı 2022-ci il yanvarın 1-dən 3 il müddətinə əlavə dəyər vergisindən azad edilmişdir.

**Azərbaycan Respublikası**
**Dövlət Gömrük Komitəsinin**
**sədri** **Səfər Mehdiyev**